**Müdafiəçilərə, tərcüməçilərə, mütəxəssislərə və ekspertlərə ödənilməli olan məbləğlərin miqdarı haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" 2000-ci il 25 avqust tarixli, 387 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 193.2*, 193.4-cü və 194-cü* maddələrində nəzərdə tutulmuş hallarda hüquqi yardımın göstərilməsinə görə müdafiəçiyə *(vəkilə)* ödənilən haqq hər iş saatı üçün *6* manat məbləğində müəyyən edilsin.[1]

2. Cinayət mühakimə icraatı zamanı tərcüməçi tərəfindən görülən işin haqqı bu iş cinayət prosesini həyata keçirən orqanın tələbi ilə yerinə yetirildikdə, hər iş saatı üçün 0,35 manat məbləğində müəyyən edilsin.[2]

3. Cinayət mühakimə icraatı zamanı mütəxəssis və ya ekspert tərəfindən görülən işin haqqı bu iş cinayət prosesini həyata keçirən orqanın tələbi ilə yerinə yetirildikdə, hər iş saatı üçün 0,35 manat məbləğində müəyyən edilsin.[3]

*4. Bu Qərarla müəyyən edilən məbləğlər müdafiəçinin (vəkilin) təqdim etdiyi hesabata uyğun olaraq cinayət prosesini həyata keçirən orqanın əsaslandırılmış qərarı əsasında dövlət büdcəsində həmin məqsədlər üçün Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına ayrıca sətirlə nəzərdə tutulmuş vəsait hesabına Azərbaycan Respublikasının Vəkillər Kollegiyası tərəfindən vəkil qurumuna və ya fərdi qaydada fəaliyyət göstərən vəkilə nağdsız qaydada ödənilir.*[4]

*5. Bu qərarın 1-ci və 4-cü hissələri Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 66.3-cü maddəsində nəzərdə tutulmuş hallara, həmçinin mülki işlər və inzibati mübahisələrə dair işlər üzrə şəxsin Azərbaycan Respublikasının Ali Məhkəməsində təmsil edilməsi zamanı vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmadıqda, vəkil tərəfindən göstərilən hüquqi yardım hallarına da şamil edilir.*[5]

6. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Ədliyyə Nazirliyi ilə birlikdə icraatında inzibati xəta haqqında iş olan hakimin yanına, səlahiyyətli orqana (vəzifəli şəxsin yanına) gəlməklə əlaqədar olaraq zərər çəkənlərin, şahidlərin, ekspertlərin, mütəxəssislərin, tərcüməçilərin və hal şahidlərinin çəkdikləri xərclərin ödənilməsi qaydasını iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.[6]

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 8 iyul tarixli, 264 nömrəli qərarının 1-ci bəndi qüvvədən düşmüş hesab edilsin.

8. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 1 fevral 2001-ci il

№ 31

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 9 iyul 2001-ci il tarixli 123 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 7, maddə 512**)
2. 9 iyul 2001-ci il tarixli 123 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 7, maddə 512**)
3. 27 sentyabr 2002-ci il tarixli 150 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 9, maddə 580**)
4. 9 avqust 2006-cı il tarixli 191 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 8, maddə 730**)
5. 24 sentyabr 2009-cu il tarixli 151 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, №9, maddə 755**)
6. 27 yanvar 2010-cu il tarixli 21 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, №1, maddə 67)**
7. 16 dekabr 2016-cı il tarixli **511** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 18 dekabr 2016-cı il, № 281, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 12, maddə 2230)**
8. 21 fevral 2018-ci il tarixli **59** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti 23 fevral 2018-ci il, № 42, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 2, maddə 362)**
9. 3 may 2018-ci il tarixli **202** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 4 may 2018-ci il, № 100, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 1112)**
10. 18 mart 2019-cu il tarixli **110** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 20 mart 2019-cu il, № 64, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 3, maddə 544)**
11. 31 yanvar 2020-ci il tarixli **30** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 4 fevral 2020-ci il, № 23, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 1, maddə 86)**
12. 19 noyabr 2020-ci il tarixli **452** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 21 noyabr 2020-ci il, № 243, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 11, maddə 1396)**

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 29 iyun 2005-ci il tarixli 123 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 6, maddə 559**) ilə 1-ci bəndində "**1,5**" rəqəmi "**3**" rəqəmi ilə əvəz edilmişdir.

9 avqust 2006-cı il tarixli 191 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 8, maddə 730**) ilə 1-ci bənddə "**aylıq gəlirin vergi tutulmayan məbləğinin 3 faizi**" sözləri "**şərti maliyyə vahidinin 0,9 misli**" sözləri ilə əvəz edilmişdir.

27 yanvar 2010-cu il tarixli 21 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, №1, maddə 67)** ilə 1-ci bənddə «**şərti maliyyə vahidinin 0,9 misli miqdarında**» sözləri «**2 manat məbləğində**» sözləri ilə əvəz edilmişdir.

3 may 2018-ci il tarixli **202** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 4 may 2018-ci il, № 100, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 1112)** ilə 1-ci hissədə "**2**" rəqəmi " **6**" rəqəmi ilə əvəz edilmişdir.

18 mart 2019-cu il tarixli **110** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 20 mart 2019-cu il, № 64, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 3, maddə 544)** ilə 1-ci hissədə "**və 193.4-cü**" sözləri "**, 193.4-cü və 194-cü**" sözləri ilə əvəz edilmişdir və həmin hissəyə "**müdafiəçiyə**" sözündən sonra "**(vəkilə)**" sözü əlavə edilmişdir.

[2] 27 yanvar 2010-cu il tarixli 21 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, №1, maddə 67)** ilə 2-ci və 3-cü bəndlərdə «**şərti maliyyə vahidinin 0,3 misli həddində**» sözləri «**0,35 manat məbləğində**» sözləri ilə əvəz edilmişdir.

[3] 9 avqust 2006-cı il tarixli 191 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 8, maddə 730**) ilə 2-ci və 3-cü bəndlərdə "**aylıq gəlirin vergi tutulmayan məbləğinin 1 faizi**" sözləri "**şərti maliyyə vahidinin 0,3 misli**" sözləri ilə əvəz edilmişdir.

[4] 18 mart 2019-cu il tarixli **110** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 20 mart 2019-cu il, № 64, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 3, maddə 544)** ilə 4-cü hissəyə "**müdafiəçinin**" sözündən sonra "**(vəkilin)**" sözü əlavə edilmişdir.

31 yanvar 2020-ci il tarixli **30** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 4 fevral 2020-ci il, № 23, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 1, maddə 86)** ilə 4-cü hissə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~4. Bu qərarla müəyyən edilən məbləğlər müdafiəçinin *(vəkilin)* təqdim etdiyi hesabata müvafiq olaraq məhkəmənin əsaslandırılmış qərarı əsasında bu məhkəmənin yerləşdiyi ərazinin maliyyə orqanları tərəfindən dövlət büdcəsində həmin məqsədlər üçün nəzərdə tutulmuş vəsait hesabına vəkillərin müvafiq ərazi qurumu hesabına ödənilir.~~

19 noyabr 2020-ci il tarixli **452** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 21 noyabr 2020-ci il, № 243, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 11, maddə 1396)** ilə 4-cü hissədə "**məhkəmənin**" sözü "**cinayət prosesini həyata keçirən orqanın**" sözləri ilə əvəz edilmişdir.

[5] 27 sentyabr 2002-ci il tarixli 150 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 9, maddə 580**) ilə 5-ci bəndində "**hallara**" sözü "**həmçinin mülki mühakimə icraatı zamanı kassasiya instansiyası məhkəməsində, məhkəmə aktlarından əlavə kassasiya qaydasında, yeni açılmış hallar üzrə işə yenidən baxıldıqda işdə iştirak edən aztəminatlı şəxslərə vəkil tərəfindən göstərilən hüquqi yardım hallarına**" sözləri ilə əvəz edilmişdir.

24 sentyabr 2009-cu il tarixli 151 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, №9, maddə 755**) ilə 5-ci bəndində "**aztəminatlı şəxslərə**" sözləri "**şəxslərin vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmadıqda**" sözləri ilə əvəz edilmişdir.

---

16 dekabr 2016-cı il tarixli **511** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 18 dekabr 2016-cı il, № 281, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 12, maddə 2230)** ilə 5-ci hissəsində "**376.3-cü**" sözləri "**66.3-cü**" sözləri ilə əvəz edilmişdir.

21 fevral 2018-ci il tarixli **59** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti 23 fevral 2018-ci il, № 42, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 2, maddə 362)** ilə 5-ci hissə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~5. Bu qərarın 1-ci və 4-cü bəndləri Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 66.3-cü maddəsində nəzərdə tutulmuş, həmçinin mülki mühakimə icraatı zamanı kassasiya instansiyası məhkəməsində, məhkəmə aktlarından əlavə kassasiya qaydasında, yeni açılmış hallar üzrə işə yenidən baxıldıqda işdə iştirak edən şəxslərin vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmadıqda vəkil tərəfindən göstərilən hüquqi yardım hallarına da şamil edilir.~~

[6] 9 iyul 2001-ci il tarixli 123 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 7, maddə 512**) ilə 4-cü, 5-ci və 6-cı bəndlər əlavə edilmişdir və 4-cü və 5-ci bəndlər müvafiq olaraq 7-ci və 8-ci bəndlər hesab edilmişdir.